Qələbəmizin rəmzi - milli birlik

Hər il təqvimdəki işğal günlərini qeyd etməyin ağır mənəvi yükü, iztirabları vardı azərbaycanlıların qəlbində. 1990-cı illərdə yazılmışdı təqvimimizə o işğal tarixləri. Sözlərimiz də bir-birinə bənzəməyə başlamışdı. Elə arzularımız, ümidlərimiz də eyni idi...

İşğal tarixlərini qeyd etmək əzabı ilə keçən illər...

Azərbaycan tarixinə o qara günlər XX əsrin sonlarında baş vermiş faciəli hadisələr nəticəsində yazılmışdı. 1980-ci illərin sonlarına doğru erməni qəsbkarları yenidən fəallaşmışdılar. Təxribatlar törətməyə başlamışdılar. Sonra soydaşlarımızın erməni quldurları tərəfindən qətlə yetirilmələri barədə xəbərlər yayıldı. Ermənilər o zaman məqsədlərinə çatdılar. Qarabağ və Şərqi Zəngəzur torpaqlarını münaqişə ocağına çevirdilər. Birinci Qarabağ müharibəsində minlərlə azərbaycanlı şəhid oldu və ya şikəst edildi. Dörd min nəfərədək soydaşımız isə bu günədək itkin sayılır. Ərazilərimizin iyirmi faizi ermənilər tərəfindən işğal olundu...

Azərbaycan xalqı otuz ilə yaxın bu faciələrin qisasının alınmamasının, vətən torpaqlarının erməni vandallarının işğalı altında qalmasının nisgili və hiddəti ilə yaşamalı oldu. Xalq hər il XX əsrin son onilliyində təqvimimizə yazılmış işğal tarixlərini qeyd etmək əzabına dözməkdən usandı, yoruldu. Ancaq dövlətinin yürütdüyü siyasətin ən doğrusu olduğuna inanaraq gözləyirdi.

"Qarabağ Azərbaycandır və nida işarəsi"

Qarabağı və Şərqi Zəngəzuru işğal altında saxladıqları illərdə də Ermənistan silahlı qüvvələri öz mənfur niyyətlərindən əl çəkmədilər. İşğalçılar ardıcıl olaraq Azərbaycan Ordusunun mövqelərini, hətta mülki əhalinin yaşayış yerlərini iriçaplı silahlardan atəşə tutdular. Nəticədə həm əsgərlərimiz, hərbi qulluqçularımız, həm də dinc insanlarımız şəhid oldular.

Azərbaycan xalqı bu mənəvi ağrılara da bir gün düşmənin layiq olduğu cəzanı alacağına, ərazilərimizin işğaldan azad olunacağına inanaraq dözdü. Bununla belə yurdlarımıza geri dönəcəyimizə, düşmənin uçurub dağıtdığı, od vurub yandırdığı evlərimizin yenidən inşa olunacağına əminliyini itirmədi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının arzularını, inamını yüksək kürsülərdə ifadə edirdi. Dövlət başçısı qətiyyətlə bildirirdi: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar. Qarabağ Azərbaycandır və nida işarəsi".

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin 27 sentyabrında düşmənin hərbi təxribatlarının qarşısını almaq üçün qismən səfərbərlik elan etdi. Azərbaycan xalqı Vətən torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək üçün sıx birləşdi.

Təqvimimizi yenidən yazan qəhrəmanlar

İkinci Qarabağ müharibəsinin ilk günlərindən Azərbaycan Ordusu qələbə əzmi ilə vuruşdu və hər döyüşü bir zəfər salnaməsinə çevirdi. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusu qarşısında Ermənistan silahlı qüvvələrinin nə qədər zəif, aciz olduğunu göstərdi. Amma igid döyüşçülərimizin gücü yalnız müasir silahlarla döyüşə girmələrində deyildi. Bir yumruq kimi birləşmiş Azərbaycan dövlətinin və xalqının mənəvi iradəsini, qüdrətini onlar hər an duyur, hiss edirdilər.

Bütün dünya İkinci Qarabağ müharibəsində Azərbaycan dövlətinin, xalqının əzmini və əzəmətini, ordumuzun döyüş məharətini, peşəkarlığını gördü. Vətənpərvər azərbaycanlılar milli birlik nümayiş etdirdi, Ali Baş Komandanlarının ətrafında sıx birləşdilər.

44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycanın zəfəri ilə başa çatdı. Ermənistan ordusunun əsgərləri döyüş əməliyyatlarında mövqelərini, hərbi texnikasını, silah-sursatını qoyub qaçdılar. Ərazilərimiz yağılardan təmizləndi.

Qazandığımız böyük zəfər sayəsində təqvimimizə yeni, əlamətdar günlər yazıldı. Artıq Azərbaycan xalqı 1990-cı illərdə tariximizə düşən işğal günlərini qeyd etmir. Ancaq unutmur da. O tarixləri ibrət dərsi kimi yadda saxlayır və 2020-ci ildə İkinci Qarabağ müharibəsində işğala son qoyulan günləri bayram edir.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Azərbaycan.- 2022.- 25 noyabr.- S.9.